Müsahibimiz Zaqatala Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Gülnigar Məmmədovadır. Onunla birgə ərazini gəzdik, ayrı-ayrı kəndlərdə olduq, kitabxanaların işi ilə maraqlandıq. Bununla bağlı oxucularımıza məlumat verəcəyik. Hələlik isə həmsöhbətimiz haqqında.

Məmmədova Gülnigar Qurban qızı 1956-cı il sentyabr ayının 22-də Qandax kəndində anadan olub. 1963-1973-cü illərdə həmin kənddə orta təhsil alıb.



# Kitabxana bilik xəzinəsi

## Ona sahib olanlar dünyanın ən zəngin adamlarıdır...

Əmək fəaliyyətinə Qandax kəndində - "Ukrayna" kolxozunda başlayıb, 1976-1978-ci illərdə Bakı şəhərində "Yeni kitab" mətbəəsində cildçi vəzifəsində çalışıb. 1979-cu ildə Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinə daxil olub, 1984-cü ildə ali məktəbi uğurla bitirib. 1984-1987-ci illərdə rayon MKS-in direktor müavini olub. 1987-ci ildən Zaqatala Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktorudur.

Müntəzəm olaraq respublika mətbuatında elmi-publisistik məqalələrlə çıxış edir. "Azərbaycan kitabı göstəricisi", "Siz xoşbəxt yazıçısınız", " Kitabxana və bazar iqtisadiyyatı", "Kitabxanaçı ömrü", " Zaqatala-yaşıl qala" , "Əsaslı biblioqrafik mənbə", "Biz onunla fəxr edirik" və digər çoxsaylı məqalələrin, habelə "80 il xalqın xidmətində" və "Mənim yurdum, məkanım" kitablarının müəllifidir. Birinci kitab Zaqatala Rayon Mərkəzi Kitabxanasının yaranmasının 80 illiyinə həsr olunmuşdur. İkinci kitab isə xatirə-memuar əsəridir. G.Məmmədova ailəlidir, bir oğlu və bir qızı var.

Gülnigar xanımın dediklərindən:

-Kitabxanalar hər bir dövrdə sivilizasiyanın, mədəniyyətin əsas atributlarından sayılmışdır. O, bəşər mədəniyyətinin hərtərəfli inkişafına xidmət etmişdir. Cəmiyyətin inkişafında baş verən ictimai-siyasi, sosial, inqilabi proseslər bilavasitə kitabxana işinə təsir göstərmişdir. Ona görə də böyük və qədim tarixi keçmişi olan xalqımız kitabxananı yüksək qiymətləndirmiş, onu sevmiş, qayğı göstərmiş, əsrdən-əsrə, nəsildən-nəslə qoruyub saxlamışdır.

Ulu öndər H. Əliyev kitabxanalara böyük dəyər verərək demişdir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir". Ona görə də kitabxa-

naya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir. Xalqımızın yetişdirdiyi dünyaşöhrətli şəxsiyyətlərdən Xəqani, Nizami, Tusi, Füzuli, Şah İsmayıl Xətai, M.F.Axundov, S.Vurğun kitabxananı bilik və maarif evi adlandırmışdır.

Azərbaycanda aparılan hərtərəfli mədəni-quruculuq işlərinin nəticəsində Zaqatalada da kitabxana şəbəkəsi yaradılmışdır. Burada ilk kitabxana rəsmi şəkildə Firudin bəy Köçərlinin və Rəşid bəy Əfəndizadənin iştirakı ilə açılmışdır.

**Respublikamız müstəqillik əldə etdikdən sonra kitabxanaların inkişafı sahəsində görülən işlər cəmiyyətin inkişafına təkan vermiş, onu sürətləndirmiş, intellektual səviyyəsini yüksəltmiş, peşə bacarığının artırılmasına əsaslı təkan vermişdir.**

Məlumdur ki, kitabxanalarda hal-hazırda informasiya mərkəzləri yaradılır, dünya kitabxanaları ilə əlaqələr genişləndirilir, bu kitabxanalara giriş həyata keçirilir, dünya elm xəzinələrindən oxucuların istifadəsi gücləndirilir. Dövlətimiz tərəfindən bütün bu işlərin dünya standartlarına uyğun şəkildə həyata keçirilməsi üçün mühüm addımlar atılmış, fərman və sərəncamlar imzalanmışdır.

Rayonumuzda "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" əldə rəhbər tutulur.

Belə ki, Mərkəzi kitabxananın metodika-biblioqrafiya şöbəsi, uşaq şöbəsi, komplektləşdirmə və kitabişləmə şöbəsi kompyuter avadanlığı ilə təmin olunmuşdur. Mərkəzi kitabxanaya alınmış 9 kompyuterdən 4-nün oxu zalında qoyulması, sürətli internet xəttinin qoşulmasından sonra oxucuların istifadəsinə verilməsi yaxın günlərdə nəzərdə tutulmuşdur.

2009-cu ildə rayon kitabxanalarının veb saytı yaradılmışdır. Kompyuterlərdən internet xəttinə çıxış vardır. Hazırda 2 kənd kitabxana filialı kompyuter avadanlığı ilə təmin olunmuşdur və bu kompyuterlər yalnız kitabxana işində istifadə olunur. Oxucuların tələbatı kitabxana işçiləri tərəfindən internetdən istifadə etməklə ödənilir. Mövcud proqramların alınması işi ləng getdiyindən kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması prosesi hələlik həyata keçirilmir.

**Buna baxmayaraq mərkəzi kitabxananın əməkdaşları tərəfindən "Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr edilən və kitabxanalarımıza daxil olan kitabların biblioqrafik təsviri yaradılmış, oxucuların istifadəsinə verilmişdir.**







Rayon kitabxanalarının tarixi (1920-2000-ci illər) tərəfimizdən araşdırılmış və kitab şəklində nəşr olunmuşdur. "Zaqatala rayonu Respublika mətbuatında" başlığı altında materiallar müntəzəm izlənilir, toplanır və bülleten şəklində oxucuların istifadəsinə verilir. "Rayon qadınlarımızın Respublikanın ictimai həyatında rolu", "Vətənimizin müdafiəsində Zaqatala gənclərinin rolu" mövzuları üzrə araşdırmalar aparılmış, materiallar toplanmış, bülleten şəklində çap olunmuşdur.

**Zaqatala yazarları və onların əsərləri haqqında məlumatlar toplanmışdır. "Zaqatalanın kitab abidələri" mövzusunda məlumatlar toplanılır. Bundan başqa, bütün tarixi-əlamətdar günlərin tarixi öyrənilir, müntəzəm olaraq oxucuların və kitabxana işçilərinin nəzərinə çatdırılır.**

Rayonda mövcud olan "Şəxsi kitabxanalar" haqqında məlumatlar hazırlanmış və çapa hazır vəziyyətə salınmışdır. Respublikamızda yaranmış keçid dövrü ilə əlaqədar kitabxanaların ədəbiyyatla təchizatında yaranmış durğunluq möhtərəm prezidentimiz İlham Əliyevin imzaladığı məlum sərəncama uyğun olaraq hədiyyə edilmiş kitablar hesabına aradan qaldırılmışdır.

Belə ki, kitabxanalarımız üçün 2005-ci ildən bu günə kimi 86730 nüsxə latın qrafikalı ədəbiyyat alınmışdır. 2010-cu ilin 1 yanvar tarixinə görə fondumuz 492430 nüsxədən ibarətdir, oxucuların sayı 3203 nəfər, kitab verilişi 446710 nüsxə olmuşdur. Mərkəzi kitabxanada bu göstəricilər öz ifadəsini aşağıdakı şəkildə tapmışdır: ümumi fond 37230 nüsxə, latın qrafikalı 8740 nüsxə, kiril qrafikalı 16860 nüsxə, rus dilli ədəbiyyat 11630 nüsxə.

G.Məmmədova deyir:

-Kitabxanalara dövlət qayğısı hər birimizi daha yaxşı çalışmağa, oxucuların tələbatını dolğun şəkildə ödəmək üçün bütün imkanlardan maksimum yararlanmağa sövq edir. Başqa cür ola da bilməz.

Belə ki, əgər kitabxanalar yüksək tərəqqi əsrində yaşamaq və fəaliyyət göstərmək istəyirsə, onda mütləq oxuculara özünün xeyirxah xidmətlərini davam etdirməklə öz gələcək strateji planlarını dəqiqləşdirməli və fəaliyyət istiqamətlərini müəyyənləşdirməlidir.

**Ona görə də indiki dövrdə kitabxanalarda strateji planlaşdırmanın aparılmasının mühüm əhəmiyyəti vardır. Bu və ya digər tədbirlərin həyata keçirilməsində etimad göstərdiyimiz qabaqcıl əməkdaşlarımıza çox güvənirik.**

Yeri düşmüşkən, onlardan Nüşabə Əfəndiyevanın (MKS-in xidmət şöbəsinin müdiri), Yasə-



dax kənd kitabxanası), Nəzmiyət Məmmədovanın (Yolayrıc kənd kitabxanası) və başqa kitabxanaçıların adlarını çəkmək istərdim. Məhz onların vəzifələrinə məsuliyyətlə yanaşmaları, verilən tapşırıqları dolğun şəkildə icra etmələri mədəniyyətimizin inkişafı və təbliği işinə öz töhfəsini vermişdir. Nəticədə biz yazıçı və şairlərimizin, elm və mədəniyyət xadimlərimizin yubileylərini, tarixi-əlamətdar günlərin qeyd edilməsi ilə bağlı, habelə digər tədbirlərin yüksək səviyyədə təşkilinə nail oluruq...

mən Məmmədovanın (baş biblioqraf), Sevda Rəhimovanın (metodist), Lətifə Qurbanovanın (komplektləşdirmə və kitabişləmə şöbəsinin müdiri), Gülnar Abdullayevanın (metodika və biblioqrafiya şöbəsinin müdiri), respublikanın əməkdar mədəniyyət işçisi Xanım Rəcəbovanın (uşaq şöbəsinin müdiri), Tağı Seyidəliyevin (Suvagil kənd kitabxanası), Səlminaz Abakərovanın (Car kənd kitabxanası), Ulduzə Əliyevanın (Göyəm kənd kitabxanası), Zöhrə Musayevanın (Qımır kənd kitabxanası), Sevda Rəfiyevanın (Gözbarax kənd kitabxanası), Sevda Əmiraslanovanın (Qan-

**Gülnigar Məmmədova ayrı-ayrı əməkdaşları haqqında ağızdolusu söhbət açsa da özü barədə danışmağa xəsislik edir. Təbii ki, bu onun təvazökarlığından qaynaqlanır. Əslində Zaqatala kitabxanaçılarının bütün uğurları bilavasitə Gülnigar xanımın adı, yorulmaz, ahəngdar fəaliyyətilə bağlıdır. Bu qəbildən olan bütün mədəniyyət işçilərimiz xüsusi hörmətə layiqdirlər...**

**E.HƏSƏNQIZI**

